# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

12 (154) 09 sentyabr 2020-ci il

İctimai-siyasi qəzet


## Əhmədiyyə Cəbrayılovun 100 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin sentyabr ayında Azərbaycan xalqının igid övladı, İkinci Dünya müharibəsi dövründə antifaşist Müqavimət hərəkatının görkəmli nümayəndəsi, əfsanəvi partizan Əhmədiyyə Mikayıl oğlu Cəbrayılovun anadan olmasının 100 illiyi tamam olur.

Əhmədiyyə Cəbrayılov bəşəriyyətin XX əsrdə məruz qaldığı qorxunc faşizm təhlükəsindən xilas edilməsində və nasizm üzərində qələbə çalınmasında böyük xidmətlər göstərmiş Azərbaycan xalqının mərd oğlu kimi rəşadətli döyüş yolu keçmişdir. 1941-ci ildə müharibənin başlanması ilə ölkənin müdafiəsi üçün könüllü surətdə cəbhəyə yollanan Əhmədiyyə Cəbrayılov daha sonralar Fransa Müqavimət hərəkatında fəal iştirak etmişdir. Əhmədiyyə Cəbrayılovun yüksək bacarıqla həyata keçirdiyi çoxsaylı kəşfiyyat əməliyyatlarındakı misilsiz şücaətləri layiqincə qiymətləndirilmişdir. Fransa dövlətinin orden və medalları ilə təltif edilmiş həmvətənimizin, eyni zamanda Müqavimət hərəkatı iştirakçıları sırasında xatirəsi əbədiləşdirilmişdir. Əhmədiyyə Cəbrayılovun Vətənimizin suverenliyi və ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə canını fəda edərək uca şəhidlik mərtəbəsinə yüksəlmiş oğlu Mikayıl Cəbrayılov Azərbaycanın ilk Milli Qəhrəmanlarındandır.



Xalqımızın qəhrəmanlıq ənənələrini Azərbaycanın hüdudlarından uzaqlarda layiqincə yaşatmış Əhmədiyyə Cəbrayılovun igidlikləri işğal altındakı torpaqlarımızı hər an azad etməyə qadir olan Azərbaycan Ordusunun mətin əsgəri üçün fədakarlığın parlaq rəmzi, hünər və cəsarətin bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyəsində xüsusi əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqının cəsur övladı Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1.Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun 100 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 11 avqust
2020-ci il.

## İlham Əliyev Bakıdakı 251 nömrəli məktəbin yeni korpusunun açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də paytaxtın Nizami rayonunda 251 nömrəli tam orta məktəbdə aparılan əsaslı təmir işləri ilə tanış olub, bu təhsil ocağının yeni korpusunun açılışında iştirak edib.

Dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verildi. Bildirildi ki, 1974-cü ildən fəaliyyətdə olan məktəbdə ümumilikdə 1700-ə yaxın şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 100-ə yaxın müəllim məşğul olur. Şagirdlərin təxminən yarısı ikinci növbədə dərsə gəlirdi. Böyük sıxlıq var idi. Yeni korpus bu problemi aradan qaldıracaq.

Dördmərtəbəli yeni korpus 840 şagird yerlikdir. Burada kimya, fizika, biologiya laboratoriyaları, 35 sinif otağı, hərbi kabinet, kitabxana, oxu zalı və yardımçı otaqlar var. Bütün otaqlar elektron vasitələrlə və proyektorlarla təchiz olunub.

Məktəbin şagirdləri də uğurları ilə fərqlənirlər. Onlar Rumıniyada, Türkiyədə keçirilən müsabiqələrin qalibləri olublar.

Təhsil ocağı ilə tanışlıqdan sonra Prezident İlham Əliyev məktəbin direktoru Aygün Əzizovaya dedi:

-Şagirdlərə və valideynlərə mənim salamımı çatdırın.

Prezident İlham Əliyevin 251 nömrəli məktəblə tanışlığı təkcə təhsil ocağının kollektivi üçün deyil, ətrafda yaşayan sakinlər üçün də yaddaqalan oldu. Yaxınlıqdakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından dövlətimizin başçısını salamladılar.

Beləliklə, növbəti məktəbin infrastrukturunun tamamilə yenilənməsi Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürüdür.

AZƏRBAYCAN VETERANI

# Rusiyanın Rostov vilayətində "Sambek yüksəklikləri" - Böyük Vətən müharibəsinin yeni hərbi-tarixi muzey kompleksinin açılışı olub



Bununla bağlı "Rossiya-24" və "Rossiya-1" televiziya kanallarının reportajlarında Prezident İlham Əliyevin müsahibəsi təqdim edilib

Avqustun 30-da Rusiya Federasiyasının Rostov vilayətində "Sambek yüksəklikləri" - Böyük Vətən müharibəsinin yeni hərbi-tarixi muzey kompleksinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, bununla bağlı Rusiyanın "Rossiya-24" və "Rossiya-1" televiziya kanallarında reportajlar göstərilib, əsasən azərbaycanlılardan ibarət olan 416-cı Taqanroq diviziyasının qəhrəmanlıqları barədə geniş məlumat verilib. Reportajlarda Prezident İlham Əliyevin müsahibəsi təqdim olunub.

Aparıcı: Bu gün Rostov vilayətində "Sambek yüksəklikləri" adlı xalq hərbi-tarix muzeyinin açılışı olub. Bu addakı "xalq" sözü təsadüfi deyil, çünki muzey veteranların və ləpirçilərin təşəbbüsü ilə yaradılıb. Sambek şiddətli döyüşlərin keçirildiyi yerdir. 1941-ci ildə faşistlər Rostova can atanda da, 1943-cü ildə bizimkilər hücuma keçəndə də. Bu yüksəklik təkcə Rusiya üçün deyil, həm də Azərbaycan üçün vacibdir. Bu gün Azərbaycan Prezidenti də həmin hadisələr barədə danışıb.

Veronika Boqmanın reportajında deyilir ki, muzey kompleksi real döyüşlərin baş verdiyi ərazidə yerləşir. 160 kilometrlik Mius cəbhə xətti boyunca 14,5 hektar döyüş sahəsidir.

Rostov vilayətinin qubernatoru Vasili Qolubev: Hitlerçilərin bizim diyarda törətdikləri dağıntı, barbarlıq və qeyri-insani hərəkətlər o vaxta qədər tarixdə görünməmişdi. Böyük Vətən müharibəsinin veteranları və iştirakçıları barədə xatirəni hər bir ailədə qayğı ilə qoruyub saxlayırlar. 2017-ci ilin baharında buradakı Şöhrət xiyabanında 325 döyüşçü ehtiramla torpağa tapşırılıb, onlardan 19-nun adı müəyyən edilib.

Reportajda bildirilir ki, hərbi-tarix muzeyi İnformasiya-Sərgi Mərkəzi, balaca kilsə, amfiteatr, alma bağı da daxil olmaqla, 8 açıq məkandan ibarətdir. Burada hitlerçilərin istehkam maketləri də qurulub. Təkcə ön xətdə 3 min kilometrə yaxın xəndək qazılmışdı. Bu, Berlinə qədər məsafədən iki dəfə çoxdur.

Sambek yüksəklikləri Mius çayının sağ sahilində Donetsk diyarının cənub yamaclarındakı yüksəkliklər, təpələr, kurqanlar silsiləsidir. Bu kurqanlardan ən ucası buradan 40 kilometr məsafədə yerləşən Saur-Mogila kurqanıdır. Onun hündürlüyü 277,9 metrə bərabərdir. Faşistlər burada, Sambekdə dəniz səviyyəsindən 80-100 metr yüksəklikdə onların əlçatmaz olması üçün nə mümkündürsə edirdilər.

Mius cəbhəsinin döyüşçülərinin xatirəsinə ilk memorial burada 1980-ci ildə, Qələbənin 35 illiyi şərəfinə ucaldılıb. Həmin memorial Azərbaycan Respublikasının vəsaiti hesabına və onun fəal iştirakı ilə inşa edilmişdi. Açılış mərasiminə Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti gəlmişdi.

Ulu öndər Heydər Əliyev: Don torpağında ucaldılmış möhtəşəm monument Rostov vilayəti və Azərbaycan zəhmətkeşlərinin bu döyüşlərin sağ qalmış və həlak olmuş bütün qəhrəmanlarının nəcib xatirəsinə hörmət və minnətdarlıq əlamətidir.

Prezident İlham Əliyev: Bu, təsadüfi deyildi. Çünki Rostov vilayətini azad etmiş 416-cı Taqanroq atıcı diviziyasının döyüşçülərinin 90 faizindən çoxu əslən Azərbaycandan idi. 416-cı Taqanroq diviziyası təkcə Rostovu deyil, bütün Rostov vilayətini, o cümlədən Taqanroq şəhərini azad edib, bundan sonra diviziyaya Taqanroq adı verilib. Melitopol, Kişineu, Odessa şəhərlərini də 416-cı diviziya azad edib. Bu diviziya uğurla həyata keçirilmiş Mozdok əməliyyatında xüsusilə fərqlənib. Əslində, bu əməliyyat Bakı şəhərinin faşistlər tərəfindən tutulmasının qarşısını alıb. Əks halda, Böyük Vətən müharibəsinin nəticələri fəlakətli olardı. O dövrdə cəbhə üçün yanacağın 80 faizini və sürtkü yağlarının 90 faizini Azərbaycan təchiz edirdi. Əgər Azərbaycan və onun mədənləri faşistlərin əlinə keçsəydi, müharibənin nəticəsi tamam başqa olardı.

Reportajda deyilir: Bəli, Don faşistləri təkcə ucsuz-bucaqsız məhsuldar tarlalara malik olan taxıl mənbəyi kimi cəlb etmirdi. Qafqazın qapısı, Maykopa, Qroznıya, Bakıya, daha sonra Fars körfəzinə gedən yollar buradan başlanırdı. 416-cı diviziyanın Mius cəbhəsində olduğu yarım il ərzində o, böyük itkilərə məruz qaldı, üç dəfə heyətini dəyişdi.

Prezident İlham Əliyev: Azərbaycan bizim ümumi Qələbəmizə layiqli töhfə verib. 128 Sovet İttifaqı Qəhrəmanı əslən Azərbaycandandır. Azərbaycanda hərbi texnika istehsal edilirdi. Müəssisələr gecə-gündüz işləyirdi. Qeyd etməliyəm ki, 416-cı diviziya Berlinin götürülməsində də fərqlənib. Kayzer Vilhelm sarayını məhz bu diviziyanın döyüşçüləri tutublar. Azərbaycanlı leytenant Məcidovun rəhbərlik etdiyi bir qrup döyüşçü isə Brandenburq darvazaları üzərinə Qələbə bayrağını sancıb.

Reportajda deyilir ki, bu nadir kadrlarda və fotoşəkillərdə 1945-ci il mayın 2-də Berlinin rəmzi üzərində Qələbə bayrağının sancılması görünür. Həmin hadisələrin iştirakçılarından biri doğma dağ kəndində 37 nəvəsinin və 19 nəticəsinin əhatəsində alay yoldaşlarını salamlayır.

İkinci Dünya müharibəsi veteranı Əliş Xəlilov: Taqanroq diviziyasının salamat qalmış bütün döyüşçülərini salamlayıram və muzeyin açılışı münasibətilə təbrik edirəm.

Prezident İlham Əliyev: Biz ümumi Qələbəmiz uğrunda canlarından keçənlərin müqəddəs xatirəsini ehtiramla yad edirik. Azərbaycanda veteranlar diqqət və qayğı ilə əhatə olunub, biz həmişə faşistlərin qəhrəmanlaşdırılmasının əleyhinə, faşizm üzərində Qələbədə Sovet İttifaqının rolu haqqında tarixi həqiqətin qorunub saxlanması naminə çıxış etmişik və edirik. Əminəm ki, bunu yeni memorialın açılması da göstərəcək. Biz çalışırıq ki, gələcək nəsillər ata və babalarımızın igidliyini unutmasınlar, onlar ümumi Qələbəmizi müqəddəs bir dəyər kimi yad etsinlər, ümumi Qələbəmizə sanballı və həlledici töhfə verənlər haqqında həqiqəti bilsinlər.

Bu memorial kompleksin açılışı münasibətilə veteranları, Rusiya və Azərbaycan xalqlarını təbrik etmək, veteranlara cansağlığı və firavanlıq arzu etmək istəyirəm.

Reportajda deyilir: Ləpirçilər Mius cəbhəsində həlak olmuş azərbaycanlıları hələ də tapırlar. Bu xiyaban burada bizim günlərdə yaranıb. Hər bir ağacın altında müəyyən edilməsi mümkün olmuş adlar yazılmış lövhəciklər var.

Arsenti Yevterev də artıq naməlum əsgər sayılmır. Onun yaxınları cəbhə xətti doğma xutora yaxınlaşanda bu ailə ilə son görüş barədə bir-birinə xatirələr söyləyirlər.

Arsenti Yevterevin nəvəsi Nataliya Qolovaç: O, uşaqlarını, həyat yoldaşını öpdü, balaca oğlunu qucağında bir qədər saxladı, ağlayaraq getdi.

Bir müddət Mius cəbhəsi barədə bilirdilər, amma susurdular. Həqiqəti söyləmək münasib hesab edilmirdi. İtkilər çox olub...

Reportajda bildirilir ki, muzey kompleksində həm veteranların ailə arxivlərindən, həm də döyüş meydanından toplanan minlərlə artefakt nümayiş olunur. Muzeyin yaradılması və fəaliyyətində ən müasir texnologiyaların tətbiqinə geniş yer verilib.

# ŞƏRƏFLİ YOLUN YOLÇUSU, GENERAL POLKOVNİK TOFİQ AĞAHÜSEYNOV

Dünya bir pəncərədir hər gələn baxar keçər.

Bu dünya pəncərəsindən hər kəs baxıb keçir, amma bu illəri kim necə yaşayır bax bu hər zaman sual doğurur. Görəsən hər kəs yaşadığı ömür yoluna baxarkən özünə hesabat verə bilirmi? Yaşadığı sürəcə nələr etdi, həyatdan köç edərkən necə xatırlanacaq sualını özünə verə bilənlər varmı?



Görəsən işinin profesionalı, vətənsevər, dövlətə sədaqətli, imanlı və s. müsbət xüsusiyyətləri özündə cəm edən insanlar tanıyırıqmı?

Bu gün oxucularıma söz açacağım insan məhz saydığım bir çox müsbət xüsusiyyətləri özündə cəm edən, Azərbaycanın canlı əfsanələrindən biridir.

Uzun illər şərəfli bir yolun yolçusu olan hər zaman sədaqətlə dövlətçiliyə xidmət edən, əməlləri və addımları ilə gənc nəslə örnək olan ali bir insandan söz açacağam.

Bu şərəfli yolun yolçusu kimdir?

Canlı bir əfsanə, Ümummilli Lider Heydər Əliyevlə çiyin-çiyinə çalışan, 7 il şəxsi müşaviri vəzifəsini daşıyan, şanlı əfsanənin şahidi olan Respublika Veteranlar Təşkilatının sədri General-polkovnik Tofiq Ağahüseynovdur. Onunla görüşümüz zamanı müsahibəmiz çox səmimi keçdi.

Mövzumuz gənclər üzərində yeraldı, təməli Ümummilli Liderin onlara olan qayğısıyla başlamışdır. Bu günkü gəncliyi keçmiş sovetlər dönəmində olan gənclərlə müqaisəyə başladır.

General polkovnik T. Ağahüseynov yüksək itelektə malik olan gəncliyimizdən söz açaraq dedi:

Azərbaycan əhalisinin təqribən üçdəbirini gənclər təşkil edir. O gənclərin xalqına, dövlətçiliyə sədaqətli, vətənpərvər, yüksək mənəvi və əxlaqi keyfiyyətlərə malik olan olduğuna əminəm. Onlar Azərbaycanın ictimai-siyasi həyatında, müxtəlif sahələrdə uğurlar qazanırlar.

Azərbaycanda müasir gənclər siyasətinin əsasını Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər Heydər Əliyev gənclərin potensialının üzə çıxarılması, onların təhsili, geniş dünyagörüşünə malik vətənpərvər insanlar kimi yetişməsinə mühüm əhəmiyyət verirdi.

Ümummilli Lider ölkənin inkişafında gənclərin iştirakını zəruri sayır, onları mühüm vəzifələrə irəli çəkirdi. Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə Azərbaycanda qeyd olunmağa başlanıb.

Ulu Öndər Heydər Əliyev gəncliyə göstərdiyi qayğının təzahürü olaraq, 1997-ci 2-fevral respublikamızda Azərbaycan Gənclər Günü elan olunub.

Məhz H. Əliyev gənclərin təşkilatlanmasına, hərtərəfli formalaşmasına şərait yaradıb.

Artıq uzun illərdi ki,daim Azərbaycan gənclərinin yanında olan Prezident İlham Əliyev və I Vitseprezident Mehriban xanım Əliyeva gənclərin fəaliyyətinə yüksək diqqət və qayğıyla yanaşması sayəsində fədakarlıq göstərən gənclər müxtəlif mükafatlarla təltif olunurlar. Prezidentin gənclərə göstərdiyi diqqət gənc nəslin bütün mümayəndələrini daha böyük nailiyyətlər əldə etməyə həvəsləndirərək yeni stimul verir.

Respublika Veteranlar Təşkilatının, müha-



ribə Vetetanlarının gənc nəsil arasında hərbi vətənpərvərlik tərbiyyəsinin güclənməsində əvəzsiz rolu var.

İlk onu qeyd edim ki, Azərbaycan xalqı faşizm üzərində tarixi qələbəyə öz canlarını qurban verərək töhfələr verib.

İkinci Dünya müharibəsində keçmiş SSRİnin qazandığı tarixi Qələbədə çox böyük rolu olan Azərbaycan xalqı özünün 700 min cəsarətli oğul və qızlarını cəbhəyə yola salıb. Onlardan 300 mindən çoxu döyüşlərdə həlak olub. Böyük Vətən Müharibəsi zamanı göstərdikləri igidliyə görə 123 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək qələbə əldə ermək üçün şanlı yol keçib, yüzlərlə həmyerlilərimiz isə portizan dəstələrinin tərkibində vuruşub.

Azərbaycan xalqı hər zaman yenilməzliyini göstərdiyi kimi Alman faşizmi üzərində yüz minlərlə azərbaycanlı canlarından keçdi, o cümlədən arxa cəbhədə qəhrəmanlıq və böyük fədəkarlıq göstərdikləri də bir tarix olaraq tarixin vərəqlərinə yazıldı.

Respublika Veteranlar Təşkilatı mütəmadi olaraq Azərbaycan Təhsil Nazirliyilə birgə tədbirlər keçirir.



Məqsəd gənclər arasında vətənpərvərlik tərbiyyəsinin gücləndirilməsi, Azərbaycanın ərazi bütövlüyünün qorunması yolunda canından keçmiş vətən, xalq qarşısında əvəzsiz xidmətləri olan şəhidlərimizin, qazilərimizin tanıdılması, gənc nəslə onların həyat və fəaliyyətinin örnək olaraq təbliğ olunmasıdır.

PS. Genaral-polkovnik Tofiq Ağahüseynov Ulu Öndər Heydər Əliyev irsinə sadiq fəaliyyət göstərən Təşkilatın, Prezident İlham Əliyev tərəfindən hər zaman diqqət və qayğı ilə əhatə olunduğundan söz açdı.

General-polivnik gənclərimizə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan, Azərbaycanın həqiqətlərinin dünyada təbliğində gənclərin rolundan, ölkədə gənclərin təşkilatlanmasından, Azərbaycan gənclərinin ölkə həyatındakı rolundan, onların vətənpərvərliyindən, rəşadət və mərdliyindən danışdı. Gənclərin müxtəlif sahələrdə qazandıqları uğurlardan və qarşıda duran vəzifələrindən söhbət açan Genaral-polkovnik gənclərini vətən sevgisindən, onun müdafiəsindən, işğalçılardan azad etməyə hər zaman hazır ol-duqlarını da bildirdi.

Qarabağ torpaqlarını işğaldan azad etmək üçün canlarını qurban verərək qazi adını qazanan, ali şəhidlik zirvəsinə ucalan minlərlə gənclərin hər biri Azərbaycan gənclərinin bariz nümunəsi olmasıdır.

Budur Azərbaycan gəncliyi 74 il bundan öncə Alman faşiminin üzərindəki qələbə kimi, mövzu vətəni qorumaqsa, ölümün gözünə dik baxmağı bacaracaqdır.

Almaz İlahə

## *Milli Kitabxanada "Əhmədiyyə Cəbrayılov–100" adlı virtual sərgi təqdim olunub*

Bu il Azərbaycan xalqının igid övladı, İkinci Dünya müharibəsi dövründə antifaşist Müqavimət hərəkatının görkəmli nümayəndəsi, əfsanəvi partizan Əhmədiyyə Mikayıl oğlu Cəbrayılovun anadan olmasının 100 illiyi tamam olur.

Əhmədiyyə Cəbrayılov bəşəriyyətin XX əsrdə məruz qaldığı qorxunc faşizm təhlükəsindən xilas edilməsində və nasizm üzərində qələbə çalınmasında böyük xidmətlər göstərmiş Azərbaycan xalqının mərd oğlu kimi rəşadətli döyüş yolu keçib. II Dünya müharibəsinin əfsanəvi qəhrəmanı Əhmədiyyə Cəbrayılovun keçdiyi döyüş yolu heç vaxt unudulmayacaqdır. O, bir çox mükafatlara layiq görülüb. Fransa hökuməti onun hərbi şücaətlərini layiqincə qiymətləndirib. O, bu ölkənin 8 hərbi mükafatı ilə təltif edilib.

Xalqımızın qəhrəmanlıq ənənələrini Azərbaycanın hüdudlarından uzaqlarda layiqincə yaşatmış Əhmədiyyə Cəbrayılovun igidlikləri işğal altındakı torpaqlarımızı hər an azad etməyə qadir olan Azərbaycan Ordusunun mətin əsgəri üçün fədakarlığın parlaq rəmzi, hünər və cəsarətin bariz nümunəsidir.

Azərbaycan Respublikası Prezidentinin "Əhmədiyyə Cəbrayılovun 100 illiyinin qeyd edilməsi haqqında" Sərəncamına və Mədəniyyət Nazirliyinin tədbirlər planına uyğun olaraq Milli Kitabxananın əməkdaşları tərəfindən "Əhmədiyyə Cəbrayılov – 100" adlı virtual sərgi hazırlanıb.

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, virtual sərgidə böyük sərkərdənin həyat və fəaliyyətini əks etdirən materiallar, fotolar, mövzuya uyğun musiqi, mükafatları, haqqında yazılmış kitab və




məqalələr təqdim olunur. Virtual sərgidəki elektron resurslar tam mətni ilə verilib.

Sərgi ilə tanış olmaq istəyənlər *http:anl.azelvsbEhmediyye_Cebrayilovindex.htm* linkindən istifadə edə bilərlər.

AZƏRBAYCAN VETERANI

# Veteranlara Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə bağlı yubiley medalları təqdim olunub



Bəşəriyyət üçün faciəli dövr kimi xatırlanan İkinci Dünya müharibəsi mayın 9-da SSRİ-nin qələbəsi ilə başa çatıb və faşizm süqut edib. Bu gün fəxrlə söyləmək olar ki, Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb.

Həmin müharibədə göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və digər yaşayış məntəqələri uğrunda rəşadətlə döyüşüblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır. Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatından AZƏRTAC-a bildiriblər ki, Təşkilatın sədri general-polkovnik Tofiq Ağahüseynov Bakı şəhərinin Binəqədi, Nəsimi, Nizami, Suraxanı və Qaradağ rayon veteranlar təşkilatlarının sədrlərini Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin 2019-cu il 13 iyun tarixli Sərəncamı ilə təsis olunan "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi" yubiley medalı ilə təltif edib.

General-polkovnik Tofiq Ağahüseynov qeyd edib ki, müharibə illərində Azərbaycan xalqının göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla anılır. Böyük Qələbənin qazanılmasından 75 il ötsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt əhəmiyyətini itirmir. O bildirib ki, gün gələcək qəhrəman Azərbaycan xalqı da Qarabağın və işğal altındakı rayonlarımızın düşmən tapdağından azad edildiyi günü Qələbə bayramı kimi qeyd edəcək. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə güclü ordumuzun qələbə qazanacağı o gün isə uzaqda deyil.

Rayon veteranlar təşkilatlarının sədrləri yubiley medallarına layiq görüldüklərinə görə Prezident İlham Əliyevə və Respublika Veteranlar Təşkilatının rəhbərliyinə dərin minnətdarlıqlarını çatdırıblar.

# Niderlandda İkinci Dünya müharibəsinin azərbaycanlı qəhrəmanının xatirəsi anılıb



Niderlandın Osterveyk şəhərində İkinci Dünya müharibəsi zamanı ölkədə partizan hərəkatının fəallarından olan və "Medo" ləqəbi ilə tanınmış həmyerlimiz Məmməd Məmmədovun xatirəsi anılıb.

Azərbaycan Respublikasının Niderland Krallığındakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, anım tədbirində səfir Fikrət Axundov, Osterveyk şəhərinin meri Hans Yansen, M.Məmmədovun Niderlandda yaşayan ailə üzvləri, səfirliyin əməkdaşları, şəhər ictimaiyyətinin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

F.Axundov İkinci Dünya müharibəsi zamanı Avropanın faşizmdən azad edilməsinə və orada demokratiyanın bərqərar olmasına azərbaycanlıların verdiyi töhfələrdən danışıb, müharibədə 600 minə yaxın azərbaycanlının iştirak etdiyini, onlardan yarıdan çoxunun qəhrəmancasına həlak olduğunu diqqətə çatdırıb. Səfir 128-dən çox azərbaycanlının Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünü, azərbaycanlı Mehdi Hüseynzadə, Əhmədiyyə Cəbrayılov və Cavad Hakimli kimi qəhrəmanların Avropanın müxtəlif ölkələrində partizan hərəkatlarına rəhbərlik etdiyini xatırladıb. Diplomat Məmməd Məmmədovun qəhrəmanlığına görə 1996-cı ildə Niderland Kralı tərəfindən onu "Orange-Nassau" ordeninin cəngavər dərəcəsi ilə təltif edildiyini bildirib, hələ iki ölkə arasında diplomatik əlaqələrin mövcud olmasından əvvəl həmyerlimizin ilk körpülər yaratdığını diqqətə çatdırıb. Niderlandın Osterveyk və "Medo"nun ata yurdu olan Zaqatalanın qardaşlaşmış şəhərlər olduğunu bildirən səfir Zaqatalada M.Məmmədovun ev-muzeyinin açıldığını diqqətə çatdırıb. F.Axundov 2020-ci il mayın 28-nin Osterveykdə Azərbaycan Günü elan edilməsinə və bələdiyyə binasının üzərində ölkəmizin dövlət bayrağının asılmasına görə şəhər merinə minnətdarlığını bildirib.

Səfir Fikrət Axundov Niderlandda M.Məmmədovun xatirəsinin əbədiləşdirilməsi istiqamətində göstərdiyi səylərə görə Osterveyk şəhərinin meri H.Yansenə "Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)" medalını təqdim edib.

Öz növbəsində H.Yansen ona göstərilən yüksək etimada görə təşəkkürünü ifadə edib.

M.Məmmədovun Niderlandda yaşayan qızı Nancy Doomen-Mamedov 2019-cu ilin mayında Azərbaycana səfəri zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mayın 9-da İkinci Dünya müharibəsi veteranları və onların ailə üzvləri ilə Bakıda Həzi Aslanov heykəlinin önündə keçirdiyi görüşdən söhbət açıb, Azərbaycan rəhbərliyi ilə tanışlıq görüşündən məmnunluğunu ifadə edib. O, eyni zamanda, Bakının və Zaqatalanın inkişafının onda xoş təəssürat oyatdığını vurğulayıb, ailə üzvləri ilə birlikdə turist qismində Azərbaycana səfər etdiyini bildirib.

Sonda şəhər ictimaiyyətinin, M.Məmmədovun ailə üzvlərinin iştirakı ilə onun vaxtilə yaşadığı evin qarşısındakı xatirə lövhəsinin önünə əklil qoyulub, güllər düzülüb.

# Şamaxı ağsaqqalları: Torpaqlarımızın azad ediləcəyi gün uzaqda deyil

Şamaxı ağsaqqalları iyul ayında Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti təxribatın qarşısını alaraq düşmən ordusuna sarsıdıcı zərbə vuran qüdrətli ordumuzu dəstəkləyir, Vətənin müdafiəsi zamanı şəhid olan qəhrəman əsgərlərimizin xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını bildirirlər.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu fikirlər Şamaxı ağsaqqallarının ümummilli lider Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında pandemiya dövrünün tələbləri çərçivəsində sosial məsafə gözlənilməklə keçirilən görüşündə səsləndirilib.

İştirakçılar öncə Ulu Öndərin abidəsini ziyarət edib, öz ehtiramlarını bildiriblər.

Rayon Ağsaqqallar Şurasının sədri Mayıl Alcanov iyulun 12-dən başlayaraq ölkəmizin sərhədində Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti təxribata ordumuz tərəfindən layiqli cavab verilməsindən və həmin günlərdə xalqımızın hərbçilərimizə dəstək verməsindən, Prezident, Ali Baş Komandan İlham Əliyevlə həmrəylik nümayiş etdirməsindən danışıb.

Görüşdə iştirak edən ağsaqqallar, müharibə veteranları ölkəmizin hər yerində olduğu kimi, Şamaxıda da rayon əhalisinin, o cümlədən gənclərin baş verənlərlə əlaqədar Ali Baş Komandana və ordumuza dəstək nümayiş etdirərək yürüş keçirdiklərini vurğulayıb, tarixi Azərbaycan torpaqlarının Prezident İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuz tərəfindən azad ediləcəyi günün heç də uzaqda olmadığını söyləyiblər.

# Prezidentin köməkçisi şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən QHT-lərlə görüşüb

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev avqustun 27-də şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən 74 QHT-nin rəhbəri ilə onlayn görüş keçirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Şuranın sədri Azay Quliyev tədbiri giriş sözü ilə açaraq bildirib ki, Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi QHT-lərə dövlət dəstəyi konsepsiyasında şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən QHT-lərə dövlət dəstəyi xüsusi prioritet təşkil edir. Şura fəaliyyəti dövründə bu kateqoriyadan olan təşkilatların layihələrinə davamlı olaraq maliyyə ayırıb və onların bu sahədə olan təşəbbüslərini daim dəstəkləyib: "Bu gün Prezidentin köməkçisi Hikmət Hacıyevin bu istiqamətdə çalışan QHT-lərlə ayrıca görüşü dövlətin bu sahəyə nə qədər böyük əhəmiyyət verdiyini bir daha sübut edir".



Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev əvvəlcə ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda canını fəda edən bütün şəhidlərimizi yad edib və onlara Allahdan rəhmət diləyib. Hikmət Hacıyev şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərin qayğılarının hər zaman Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət mərkəzində olduğunu və bu istiqamətdə çox böyük işlər görüldüyünü bildirib. Prezident İlham Əliyevin doğum günlərini şəhid ailələri ilə keçirdiyini deyən Hikmət Hacıyev bunun Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan şəxslərin ruhuna və onların ailə üzvlərinə göstərilən yüksək ehtiramın nümunəsi olduğunu qeyd edərək deyib: "Cənab İlham Əliyev 2018-ci ildə yenidən Prezident seçildikdən sonra ilk Fərmanı şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı olub. Bu şəhidlərə verilən yüksək qiymət idi. Bu Fərman əsasında 10 minə yaxın şəhid ailəsinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulub. 8018 şəhid ailəsi və müharibədə əlil olmuş şəxs mənzillərlə təmin edilib, onlara 6900 avtomobil verilib. Dövlət cari ildə 1500 şəhid ailəsi və müharibədə əlil olmuş şəxsi mənzillərlə təmin edib və ediləcək. Məcburi köçkünlərin məişət problemlərinin həllinə gəldikdə isə onu vurğulamaq istəyirəm ki, bu il ümumilikdə 7 mindən çox məcburi köçkün ailəsi mənzillərlə təmin ediləcək".

Hikmət Hacıyev bildirib ki, Böyük Vətən müharibəsi və Əfqanıstan müharibəsi veteranlarının mənzil və avtomobillərlə təmin edilməsi, sanatoriyalara göndərilməsi, onların müalicə olunması və s. kimi məsələlər də daim ölkə başçısının diqqət mərkəzindədir.

Prezidentin köməkçisi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın qeyd olunan kateqoriyadan olan insanların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində böyük işlər gördüyünü vurğulayıb. Aprel döyüşləri şəhidlərinin ailələrinə, həmin döyüşlərdə sağlamlığını itirmiş hərbçilərimizin, Tovuz döyüşlərində şəhid olan hərbçilərin ailə üzvlərinin bütün qayğıları da Mehriban Əliyevanın tapşırığına əsasən Fondun nəzarətinə götürülüb.

Hikmət Hacıyev şəhid ailələrinin, Qarabağ qazilərinin, müharibə veteranlarının, əlilliyi olan şəxslərin, qaçqın və məcburi köçkünlərin hər zaman milli maraqlarımızı qətiyyətlə müdafiə etdiklərini və cənab Prezidentin həyata keçirdiyi siyasəti daim dəstəklədiklərini bildirərək onlara göstərdikləri dövlətçilik mövqeyinə görə təşəkkür edib.

Prezidentin köməkçisi bugünkü görüşün xüsusi əhəmiyyətinə toxunaraq QHT rəhbərlərinin fəaliyyət göstərdiyi istiqamətlər üzrə fikir və təklifləri ilə yaxından tanış olmaq istədiyini bildirib.



Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini Cəlil Xəlilov, "Ehtiyatda Olan Zabitlərin Konfederasiyası" İctimai Birliyinin sədri Məmmədhüseyn Sarıyev, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev, "Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli, "Qarabağ Azadlıq Təşkilatı" İctimai Birliyinin sədri Akif Nağı, Azərbaycan Qaçqınlar Cəmiyyəti İctimai Birliyinin sədri Əziz Ələkbərov, "Zəfər" şəhid ailələrinə dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə, "Vətənpərvərliyin Təbliğinə Dəstək" İctimai Birliyinin sədri Şəmistan Əlizamanlı, Əlil Təşkilatları İttifaqının sədri Davud Rəhimli, Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası İctimai Birliyinin sədri Rey Kərimoğlu, "Əsgər Ailələrinə Dəstək" İctimai Birliyinin sədri Mətanət Cəfərova, "Azərbaycan Gözdən Əlillər Cəmiyyəti" İctimai Birliyinin sədri Səmyar Abdullayev, Azərbaycan Çernobıl Əlillər İttifaqının sədri Mirhəsən Həsənov, Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov, Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyev, "Xankəndi" məcburi köçkünlərə dəstək İctimai Birliyinin sədri Xatirə Vəliyeva, Azərbaycan Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatının sədri Vüqar Qədirov, "Dünya Azərbaycanlılarının Vətənpərvərlər" İctimai Birliyinin sədri Nəsimi Həsənov, "Qürur" şəhid ailələri xeyriyyə İctimai Birliyinin sədri Naibə Behbudova, "Müharibə Veteranı Qadınlarına Sosial Yardım" İctimai Birliyinin sədri Radə Abbas, "20 Yanvar" İctimai Birliyinin sədri Sultan Əzimzadə, "İstedadlı Əlillər" İctimai Birliyinin sədri Cavad Qasımov, "20 Yanvar Şəhid Ailələrinin Hüquqlarının Təmin olunması" İctimai Birliyinin sədri Maral Zamanova, "Şəhid Ailələrinə Sosial Dəstək" İctimai Birliyinin sədri Almaz Zeynalova, Azərbaycan Respublikası Milli Qəhrəmanlarını Tanıtma İctimai Birliyinin sədri Elşən Uluxanlı, Azərbaycan Vətən Müharibəsi Əlilləri Birliyinin sədri Firudin Məmmədov, "Vətən Fədailərinin Hüquqlarının Müdafiəsi" İctimai Birliyinin sədri Dadaş Quliyev və "Veteran Tankçılar" İctimai Birliyinin sədri Hacıbala Əzimov çıxış edərək onlara göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər. QHT rəhbərləri fəaliyyət göstərdikləri sahə ilə bağlı fikir və təkliflərini səsləndirərək Hikmət Hacıyevin iştirakı ilə keçirilən QHT-hökumət dialoqunu yüksək qiymətləndiriblər.

Tədbirə yekun vuran Prezidentin köməkçisi Hikmət Hacıyev görüşdə fəal iştirak edən və müxtəlif təkliflər səsləndirən QHT rəhbərlərinə təşəkkür edərək bildirib ki, onların fikir və təklifləri diqqətlə araşdırılacaq və imkan daxilində nəzərə alınacaq. Bununla yanaşı, Prezidentin köməkçisi onu da xüsusi olaraq vurğuladı ki, şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən QHT-lər ölkəmizin milli maraqlarının qorunmasında, vətəndaş həmrəyliyinin və hərbi vətənpərvərliyin gücləndirilməsində, cəmiyyətin ümummilli maraqlar ətrafında birləşməsində, ölkəmizə qarşı yönələn təhdid və təxribatların qarşısının alınmasında və Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə effektiv şəkildə çatdırılmasında daha fəal olmalı və bu işdə bütün potensiallarını səfərbər etməlidirlər.

Məlumat üçün qeyd edək ki, Prezidentin köməkçisi Hikmət Hacıyevin QHT-lərlə görüşü davam edəcək.

AZƏRBAYCAN VETERANI

# Paytaxtda yaşayan müharibə veteranlarına ərzaq sovqatları paylanılıb

İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqının göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır. Böyük və ümumi Qələbənin qazanılmasından 75 il ötsə də, həmin müharibədə misilsiz şücaət göstərmiş qəhrəmanlarımızın xidmətləri heç vaxt unudulmur. Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatı da mütəmadi olaraq müharibədə iştirak etmiş veteranlara və onların ailə üzvlərinə diqqət və qayğı göstərir, sosial problemləri ilə maraqlanır.

AZƏRTAC xəbər verir ki, koronavirus (COVID-19) pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması üçün ölkə rəhbərliyi tərəfindən reallaşdırılan genişmiqyaslı tədbirlər çərçivəsində 245 nəfər müharibə veteranına iyulun 4-dən etibarən ərzaq yardımlarının paylanılması aksiyası həyata keçirilir. Aksiya Respublika Veteranlar Təşkilatının sədri general-polkov-



nik Tofiq Ağahüseynovun təşəbbüsü ilə reallaşdırılır.

Məqsəd koronavirus pandemiyasının yayıldığı dövrdə yaşayışında çətinlik yaranan və ehtiyacı olan veteranlara dəstək göstərməkdir.

Aksiya çərçivəsində Respublika Veteranlar Təşkilatının, müvafiq rayon icra hakimiyyətlərinin və rayon veteranlar təşkilatlarının nümayəndələrinin iştirakı ilə Bakının Yasamal, Binəqədi, Qaradağ, Nizami, Nərimanov, Nəsimi, Pirallahı, Sabunçu, Səbail, Xəzər və Suraxanı rayonlarında yaşayan Böyük Vətən müharibəsi veteranlarına və onların ailələrinə ərzaq məhsullarından ibarət sovqatlar artıq paylanıb.

Veteranlarla görüşlərdə ölkəmizdə tətbiq edilən xüsusi karantin rejiminə ciddi əməl



olunmasının, zərurət yaranmadan digər şəxslərlə təmas qurulmamasının və virusun yayılmasının qarşısının alınmasına dəstək olacaq şəxsi gigiyenik və tibbi-profilaktik qaydalara riayət edilməsinin vacibliyi vurğulanıb.

Bakı şəhəri rayon veteranlar təşkilatlarının sədrləri koronavirusun yayıldığı dövrdə yaşayışında çətinlik yaranan və ehtiyacı olan müharibə veteranlarına ərzaq yardımları paylanılması aksiyasını yüksək qiymətləndiriblər. Onlar bu ahıl insanlara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə və aksiyanın təşəbbüskarına minnətdarlıqlarını bildiriblər.

Xatırladaq ki, təşkilat "Evdə qal, həyatları xilas et!" və dövlətimizin başçısının "Biz birlikdə güclüyük!" çağırışları ilə veteranlara müraciət edərək, onları və əhalini vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər



Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət olunmasını tövsiyə edib. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev hər bir veteranın Vətən qarşısındakı xidmətlərini daim yüksək tutur. Koronavirus pandemiyasının dünyanı bürüdüyü vaxtda dövlətimizin başçısı tərəfindən atılmış qabaqlayıcı addımlar nəticəsində ölkəmiz bu bəladan cüzi itkilərlə çıxmaq üzrədir.



Qeyd edək ki, bundan əvvəl respublikamızın 40-dan çox şəhər və rayonunda yaşayan Böyük Vətən müharibəsi veteranına və onların ailələrinə də ərzaq məhsulları çatdırılıb. Eləcə də altı ildir yataq xəstəsi olan Ağdaş rayon sakini bir nəfər müharibə veteranı əlil arabası ilə təmin edilib.

# "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi" yubiley medalı təqdim olundu

Saatlı rayon İcra Hakimiyyətinin birinci müavini İham Quliyev, Saatlı rayon Polis şöbəsinin əməkdaşı polkovnik-leytenant, eyni zamanda Qarabağ müharibəsi veteranı, eləcə də rayon Veteranlar Təşkilatının sədr müavini Miraflam Məmmədov, İmişli rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev, Ağsu rayon İcra Hakimiyyətinin başçısı Vahid Tağıyev və rayon Veteranlar Təşkilatının sədri Cəmaləddin Zeynalov, İsmayıllı rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov və rayon Veteranlar



Təşkilatının sədri Əlaləm Babayev, Şamaxı şəhər Veteranlar Təşkilatının sədri Ağarza Bayramov, Gədəbəy rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev və rayon Veteranlar Təşkilatının sədri Məhəmməd Əliyev, Daşkəsən rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, Bakı şəhər Xəzər rayon İcra Hakimiyyətinin baş-



çısı Elşən Salahov veteran hərəkatına göstərdiyi dəstəyə və rayon veteranlarına göstərdiyi diqqət və qayğıya görə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin 2019-cu il 13 iyun tarixli Sərəncamı ilə təsis olunan "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi" yubiley medalı ilə təltif edilib. Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynovun göstərişi ilə Təşkilatın mütəxəssisi İsmayıl İsmayılov yubiley medallarını sahiblərinə təqdim edib.

Medal təqdim olunanlar "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Rusiya Federasiyasının yubiley medalına layiq görüldüyünə görə başda Cənab Prezident İlham Əliyev olmaqla, eləcə də Respublika Veteranlar Təşkilatının sədri General-polkovnik Tofiq Ağahüseynova öz dərin minnətdarlıqlarını bildiriblər.

## *Azərbaycanda faşizm üzərində Qələbənin 75 illiyi münasibətilə poçt markası dövriyyəyə buraxılıb*

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərmarka" MMC İkinci Dünya müharibəsində qələbənin 75 illiyinə həsr olunmuş poçt markası dövriyyəyə buraxıb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, markanın hazırlanmasında məqsəd 1941-1945-ci illərdə Azərbaycanın faşizm üzərində Qələbəyə verdiyi töhfənin həm yerli, həm də əcnəbi filatelistlər arasında təbliğ edilməsidir. Markada neft istehsalında istifadə edilən mancanaq dəzgahının qolu – balansir



tərəfindən dağıdılmış Vermaxt əsgərinin dəbilqəsi, arxa planda isə həmin illərə aid neft qüllələri təsvir olunub. Bu marka vasitəsilə Azərbaycan neftinin, azərbaycanlı neftçilərin arxa cəbhədə sərf etdikləri titanik əməyin XX əsrin ortalarında bəşəriyyətin bəlasına çevrilmiş faşizmin məhv edilməsindəki əhəmiyyəti bir daha qabardılır, dünya kolleksiyaçıları arasında yayılır.

Dizaynı "Azərmarka"nın baş rəssamı Vüqar Əyyubov tərəfindən hazırlanmış marka Belarus Respublikasının Bobruysk şəhərində 10 000 ədəd tirajla çap olunub.

Markalarla yanaşı, 200 ədəd Birinci gün zərfi də hazırlanaraq satışa çıxarılıb.

# Məlik Məhərrəmov-100



Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmovun 100 illik yubileyi münasibəti ilə Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə, ideoloji və mədəniyyət mərkəzlərində silsilə tədbirlər həyata keçirilir.

Nəzərə çatdıraq ki, Məlik Məhərrəmov 1920-ci il avqusutun 29-da Zərdab rayonunun Bıçaqçı kəndində anadan olub. O, 1936-cı ildə orada natamam orta təhsilini başa vuraraq, Bakıda Xalq Təsərrüfatı Texnikumunda oxuyub. 1939-cu ildə oranı bitirdikdən sonra isə keçmiş sovet ordusu sıralarına çağırılıb. 1942-ci ildə Rusiyanın Vladimir şəhərində hərbi məktəbi bitirib.

Məlik Məhərrəmov 1941-1945-ci illər müharibəsində Berlinədək şərəfli döyüş yolu keçib. Belarusiya, Ukrayna uğrundakı döyüşlərdə xüsusilə fərqlənib. Onun komandir olduğu bölük 1943-cü ilin payızında Dneprin keçilməsində böyük məharət göstərib. Həmin döyüş əməliyyatına görə Məlik Məhərrəmova və onun bölüyündən 17 nəfərə Sovet İttifaqı Qəhrəmanı adı verilib.

M.Məhərrəmov müharibədən sonra atıcı diviziyada tabor komandiri kimi xidmət edib. O, 1954-cü ildə Frunze adına Hərbi Akademiyanı bitirib, alayın qərargah rəisi vəzifəsində çalışıb.

M.Məhərrəmov 1966-cı ilə qədər Azərbaycan Respublikasının hərbi komissarlıq sistemində məsul vəzifələrdə xidmət edib, 1966-1973-cü illərdə isə indiki Bakı Dövlət Universitetində hərbi kafedranın rəisi olub. 1973-cü ildə ehtiyata buraxılsa da, universitetdə fəaliyyətini davam etdirib.

Məlik Məhərrəmov müharibə illərində göstərdiyi hərbi məharətə, komandirlik bacarığına və igidliyinə görə o dövrdə ən yüksək qəhrəmanlıq adına - Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. SSRİ-nin bir sıra orden və medalları ilə təltif edilib. 1995-ci ildə yubileyi təntənəli surətdə qeyd edilib və müstəqil respublikamızın "Şöhrət" ordeni ilə təltif olunub.

Hələ ötən əsrin yetmişinci illərində istefada olan polkovnik Məlik Məhərrəmov Ulu Öndərimizin yaratdığı o vaxtlar analoqu olmayan ixtisaslaşdırılmış xüsusi orta məktəbin bir müddət rəisi olub və bu gün də haqqında xoş xatirələr söylənilir. İstər xalqımızın ümummilli lideri Heydər Əliyev, istərsə də dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən onun xatirəsinin həmişə əziz tutulub.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov ölkəmizin hərb tarixinə, sərkərdələrimizin, qəhrəmanlarımızın, şanlı döyüş ənənələrimizin təbliğinə xüsusi önəm verildiyini, Müdafiə Nazirliyinin şəxsi heyətin bu istiqamətdə tərbiyə olunmasında məqsədyönlü fəaliyyətini yüksək qiymətləndirərək, göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə şəxsən öz adından, həmçinin çoxsaylı veteranlar adından minnətdarlığını bildirir.

## "Bu sərəncam sadəcə hərb tariximizə deyil, həm də ümumbəşəri dəyərlərə verilən ən yüksək qiymətdir"

Məlum olduğu kimi, ölkə başçısı Əhmədiyyə Cəbrayılovun 100 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov ölkə başçısının sözügedən sərəncamını yüksək qiymətləndirib, bunu bütövlükdə xalqımızın qəhrəmanlıq tarixinə verdiyi qiymət kimi dəyərləndirib:

"Əhmədiyyə Cəbrayılov II Dünya Müharibəsinin ən böyük qəhrəmanlarından biri kimi sadəcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da tanınan, ehtiramla yad edilən insanlarımızdandır. 1941-ci ildən etibarən Fransa Müqavimət Hərəkatında iştirak edən, faşist Almaniyasına qarşı mütərəqqi dünyanın apardığı mübarizədə çoxsaylı qəhrəmanlıqlar göstərən Əhmədiyyə Cəbrayılov, göstərdikləri igidliklərə görə Fransanın müxtəlif orden və medalları ilə təltif edilib, ona cəsur hərbçi kimi xüsusi imtiyazlar verilib. Məsələn, Əhmədiyyə Cəbrayılova verilən bu imtiyazlardan biri hərbi parad zamanı ona generallardan belə öndə getməyə icazə verirdi. Bu faktın özü Əhmədiyyə Cəbrayılovun necə böyük qəhrəman olduğunu sübut edir.

Bu baxımdan prezident İlham Əliyevin Əhmədiyyə Cəbrayılovla bağlı verdiyi sərəncam olduqca təqdirəlayiqdir. Ölkə başçısının bu sərəncamını sadəcə hərb tariximizə, qəhrəmanlarımıza verilən qiymət deyil. Bu, həm də, perzidentimizin, dövlətimizin ümumbəşəri dəyərlərə verdiyi qiymət deməkdir. Çünki Əhmədiyyə Cəbrayılov faşizmə, irqi, milli ayrı-seçkiliyə qarşı mübarizə aparıb. O, insanlığın, ümumbəşəri dəyərlərin, sülhün və əminamanlığın qorunması, bəşəriyyətin "qəhvəyi taun"dan müdafiəsi uğrunda səy göstərib. Bu isə o deməkdir ki, ölkə başçısının Əhmədiyyə Cəbrayılovla bağlı sərəncamı bütövlükdə faşizmə qarşı aparılan mübarizəyə, ümumbəşəri dəyərlərin müdafiəsinə verilən qiymətdir.

Bildiyiniz kimi, xeyli müddətdir ki, torpaqlarımızın bir qismi erməni işğalı altındadır. Bu gün xalqımız erməni faşizminə qarşı mübarizəsini davam etdirir. Belə bir şəraitdə Əhmədiyyə Cəbrayılovla bağlı verilən sərəncam, həm də gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi baxımından önəmlidir. Gənc nəsil babalarının döyüş yolu, apardıqları mübarizə, bu mübarizədə göstərdikləri qəhrəmanlıqları bilməli, bu qəhrəmanlıqlardan ruhi-mənəvi güc almalı, müharibə zamanı erməni faşizminə qarşı mübarizədə bu qəhrəmanlıqları təkrarlamalıdır.

Bu baxımdan ölkə başçısının bu sərəncamını alqışlayır, bütün veteranlar adından prezident İlham Əliyevə təşəkkürümüzü bildiririk. Əminəm ki, bu sərəncam və ondan irəli gələn tapşırıqların icrası qəhrəmanlıq tariximizin öyrənilməsi və təbliğində yeni bir səhifə açacaq, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə də öz töhfəsini verəcəkdir".

## Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmov

Məlik Məlik oğlu Məhərrəmov 1920-ci il avqustun 29-da Zərdabın Bıçaqçı kəndində, həm də atasının vəfatından 3 ay sonra doğulub, 1 yaşı tamam olanda anası vəfat edib. Məlik I sinfə 10 yaşında getməli olub, elə 10 yaşından kolxozda da işləyib- pambıq yığıb, taxıl suvarıb. VII sinfi bitirən kimi tək-tənha Bakıya gedib, peşə təhsili alıb, Bakının "Qırmızı oktyabr" artelində mühasib köməkçisi işləyib. Elə həmin il orduya çağırılıb, rus dilini yaxşı bilməsini və qabiliyyətini nəzərə alıb komandanlıq onu Ryazan hərbi rabitə məktəbinə göndərib.

1941-ci ildə müharibə başlanır və Məlik Məhərrəmov cəbhəyə könüllü gedir. Müharibə iyunun 22-də başlmışdı, iyunun 27-də Məlik Məhərrəmov Şimal-Qərb cəbhəsində – Pskov vilayətində amansız qanlı döyüşdə faşistlərlə vuruşurdu...

1943-cü ilin payız gecəsində 77-ci diviziyanın tərkibində leytenant M. Məhərrəmovun bölüyü düşmən nəzarətində olan Dnepr çayını özünün düzəltdiyi sal və qayıqlarla keçərək düşmənin başının üstünü qəfildən aldı, Sovet ordusunun əsas qüvvələri çayı keçib köməyə gələnə qədər tutduğu ərazini qəhrəmanlıqla müdafiə edib 12 saat dayanmadan düşmənlə vuruşdu, onu möhkəmləndirilmiş istehkamlarından da vurub çıxardı, səngərdə qoyub qaçdığı pulemyotları və döyüş sursatlarını ələ keçirdi.

Məlik Məhərrəmov həmin çətin, qorxulu və ona böyük şöhrət gətirən əməliyyatı belə xatırlayırdı:

– Mənə qədər bir çox bölüklərə, özü də rusların komandir olduqları bölüklərə Dnepri keçmək əmri verilmiş, əməliyyatlar pozulmuş, bölüklər böyük itkilərlə geri üzmüşdülər. Əslində məni də ölümə göndərirdilər. Düzdür, özüm könüllü dedim ki, çayı mən bölüyümlə keçərəm. Amma könüllü getməsəydim əmr edəcəkdilər, -bunu duydum və tale üzümə güldü. Biz faşistlərin pulemyotlarını ələ keçirən kimi o pulemyotlarla işləməyi bacaran 2 əsgərim düşmənə atəş açmağa başladı. Bizimkilər də guya bizə dəstək verərək alman pulemyotlarının səsi gələn nöqtələri vurmağa başladılar. Yaxşı ki, çayı keçəndə telefon xətti də çəkə bilmişdik. Dərhal telefonla o taya xəbər verdim ki, o pulemyotları qənimət götürmüşük, o səmtə atmayın"...

Bu əfsanəvi şücaətə görə 1944-cü il yanvarın 15-də Məlik Məhərrəmova və onun 17 döyüşçüsünə Sovet İttifaqı Qəhrəmanı adı verildi. Sonra M. Məhərrəmov Moskvada M. Frunze adına Hərbi Akademiyanı da bitirdi.

Müharibədən sonra isə o, Lənkəranda, Bakının Salyan hərbi kazarmasında qərargah rəisi, Ağdaş, Oğuz, Qəbələ, Xızı, Sabirabad, Kürdəmir və Nərimanov rayonlarında hərbi komissar, Bakı Dövlət Universitetində hərbi kafedranın, sonralar isə xüsusi şöbənin rəisi işlədi.

Sovet İttifaqı Qəhrəmanı, polkovnik, Şöhrət ordenli Məlik Məhərrəmov ömrü boyu vətənə və xalqa vicdanla, namusla xidmət etdi, heç yerdə heç kəsdən təmənna ummadı.

Məlik Məhərrəmovun bölüyünün Dnepr çayını keçib düşmənin gücləndirilmiş müdafiə istehkamlarını ələ keçirdiyi xəbərini eşidəndə SSRİ-nin və Polşa dövlətinin marşalı, 1-ci Belarus cəbhəsinin komandanı, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı K. K. Rokossovski bir dəstə general-la azərbaycanlı leytenant Məlik Məhərrəmovla və onun qvardiyaçı bölüyü ilə şəxsən tanış olmaq üçün Dnepr çayının sahillərinə gəlib. O, Məhərrəmovla yaxından tanış olub və deyib: "Leytenant Məhərrəmov, sənə həsəd aparıram".

Məhərrəmov təəccüblənir:

– Cəbhə komandanı leytenanta?

Rokossovski təsdiq edir:

– Bəli. Mən leytenant olanda məni heç kəs tanımırdı. Sənin qəhrəmanlığın haqqında isə radio danışır, qəzetlər yazır...

Məlik müəllim deyirdi ki, o görüşün sonunda marşal mənimlə əl-ələ görüşdü, yanındakı rus generallarına isə belə dedi: "Yaxın gəlin, görüşün, əliniz əsl kişi əlinə dəysin"...

İsaməddin Əhmədov,
"Əkinçi" qəzetinin redaktoru

## Faşistlərin təklifini rədd etdikləri üçün “islaholunmazlar” damğası vurulan azərbaycanlı əsgərlər




İkinci Dünya müharibəsi zamanı 1941-ci ildə Krımın müdafiəsi zamanı faşistlər tərəfindən əsir götürülən sovet əsgərləri arasında azərbaycanlılar da olub. Mirzə Abdullayev (1907-1944), Molla Hüseynov (1905-1943), Məhərrəm Ələkbərov (1906-1943), Fiodor Fokin (1911-1943), Bədəl Yusibov (1919-1944), Xıdır Quliyev (1916-1943), Müxlis Məmmədzadə (1902-1942), Məmməd Seyidov (1907-1943), Rza Hüseynov (1905-1943), Səfər Həsənov (1906-1943) kimi azərbaycanlılar əsirlikdə olduqları zaman müxtəlif vaxtlarda onlara faşistlərin tərəfinə keçmək təklif



olunub. Bu təklifi rədd etdikləri üçün onlara “islaholunmazlar” damğası vurulub, faşistlərə boyun əyməyən azərbaycanlı əsgərlər güllələniblər. Onlardan ikisi Strasburqun “Neuhof” qəbiristanlığında uyuyur, digərlərinin qəbri isə axtarılır.

AZƏRTAC xəbər verir ki, Strasburqda fəaliyyət göstərən “Kəpəz” nəşriyyat evinin rəhbəri Nicat Kazımov apardığı tədqiqatların nəticəsində İkinci Dünya müharibəsində qəhrəmancasına həlak olmuş azərbaycanlıların adlarını aşkarlayıb.

O bildirib ki, İkinci Dünya müharibəsində qəhrəmancasına həlak olmuş azərbaycanlı əsgərlər Fransanın müxtəlif bölgələrindəki qəbiristanlıqlarda uyuyurlar. Ancaq adlarını yeni tapdığı azərbaycanlı əsgərlər faşistlər tərəfindən əsir götürülərək Elzas regionunda nazirlərin “Fort de Mutzig” adlanan yeraltı hərbi düşərgəsinə gətiriliblər. Düşərgədə saxlanılan azərbaycanlı əsgərlərdən müxtəlif vaxtlarda faşistlərlə əlbir olmaq tələb edilib. Azərbaycanlı əsgərlər faşistlərin bu tələbini rədd etdikləri üçün Mutziqdə güllələniblər. Tədqiqat zamanı aşkarlanan nasistlərin möhürlü sənədlərində də bu əsgərlərə düşərgədə yer olmadığı qeyd edilib.

Nicat Kazımov həmin azərbaycanlılardan ikisinin - Molla Hüseynov və Müxlis Məmmədzadənin məzarlarını Strasburqun “Neuhof” qəbiristanlığında tapsa da, digərlərinin qəbrini axtarmaqda davam edir. Yuxarıda adı sadalanan azərbaycanlı



əsgərlərdən daha ikisinin - Xıdır Quluzadə (Bakı) və Bədəl Yusibovun (Ağcabədi) Azərbaycandakı ailə üzvləri ilə əlaqə yaradılıb.

“İkinci Dünya müharibəsində qəhrəmancasına həlak olmuş və qürbətdə dəfn edilmiş əsgərlərimizi ailələrinə qovuşdurmaq istəyirəm. Yuxarıda adı sadalanan şəxslərin nəvələri, yaxınları ilə əlaqəsi olan şəxslərdən bu işdə yardım göstərmələrini xahiş edirəm. Əsgərlərimiz haqqında sənədli film hazırlamağı düşünür və bunun üçün onların ailə üzvləri ilə danışmaq, onlar barədə əlavə məlumat əldə etmək istəyirəm”, - deyə N.Kazımov qeyd edib.

Ş. Ağalarova
AZƏRTAC-ın xüsusi müxbiri
Strasburq

# Onun ömür yolundan səhifələr

Hər zaman nəsillərə nümunə olacaq veteran insanları xalq ağsaqqal, dünya görmüş, yol göstərən adlandırmış, bizim milli mentalitetimizdən irəli gələn etik qaydalara görə onlar hörmət və izzət sahibi kimi həmişə məclisin yuxarı başında oturdulmuşdur. El arasında ağsaqqaldan məsləhət almaq, onun buyurduğu yolla getmək bir müqəddəs kəlama çevrilib.

Bizlər şərəfli ömür sürən, özünün xeyirxahlığı, saflığı, nəcibliyi, ədalətliliyi ilə seçilən insanlara hörmətlə yanaşırıq. Çünki böyüklük eyni zamanda özünün şərəf və ləyaqətini qoruyan insanlara xas olan keyfiyyətdir.

Cəlilabad rayon Veteranlar Təşkilatının və Ağsaqqallar Şurasının sədri Əliheydər Əsədov da belə işıqlı, nurlu simalardandır. Rayonda onun barəsində söz düşəndə deyirlər: Əliheydər əmi iman və ədalət sahibidir, təmiz adını ən zəngin var-dövlətdən üstün tutandır, xeyirxahdır, nəcibdir və ən nəhayəti hər bir ehtiyacı olana bacardığı qədər dəstək verəndir, kömək edəndir. Bu isə sözün əsl mənasında hər bir insan üçün etalondur.

Əliheydər Əsədov müxtəlif sahələrdə çalışıb. Harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq o, həmişə Allahı başının üzərində görüb, haqq-ədaləti, əlitəmizliyi, halal çörəyi hər şeydən üstün bilib. Bəlkə bunlardan daha böyük müsbətlikləri var, bəlkə özünə vətəndaşlıq borcu bilib gördüyü işlərin çoxsunun "sirrini" açmaq istəməyib. Bircə o məlumdur ki, Cəlilabad kimi böyük bir bölgədə hamı-hər kəs Əliheydər Əsədovu özünə ağsaqqal bilir. Onun əməli, hər bir insana nümunə olacaq şərəfli ömür yolundan bəhs edən eyni adlı "Şərəfli ömür yolu" kitabının müəllifi qələmdaşımız Ədalət Salman çalışıbki, uzunillik şərəfli həyat yaşayan Əliheydər Əsədovun ömür kitabının hər səhifəsinə işıq salsın, onun haqqında söylədiklərinin fəlsəfi fikirlərlə qıfılbənd edib daha da möhkəmləndirsin. Ədalət naminə deyək ki, çox uğurlu da alınıbdır. Kitabdan bir nümunə gətirməklə fikrimizə aydınlıq gətirmək istərdik: "Gəlin etiraf edək ki, "Ağsaqqal" sözü bu gün çox hörmətdən düşüb. Ona görə yox ki, bu sözə qiymət verən yoxdur. Ona görə yox ki, ağsaqqallar azalıb. Və ona görə yox ki, cəmiyyətdə hörmətsizlik yaranıb. Ona görə ki, əsl ağsaqqal qalmayıb. Bəs əsl ağsaqqal kimdir, nə üçün qalmayıb və necə olmalıdır?

"Ağsaqqallar Şurası" dedikdə



elə başa düşmək lazım deyil ki, bu adi bir şura olaraq yaradılıb və ancaq dövlət tədbirlərində iştirakı nəzərdə tutulub. Əslində, Ağsaqqallar Şurası rayonun ictimai həyatında ən önəmli yer tutmalı, ən ziddiyyətli və gərgin məqamlarda barışdırıcı mövqedə olmalı, dövlət və cəmiyyət arasındakı münasibətlərdə tənzimləyici vasitə kimi çıxış etməli, gənclərlə yaşlı nəslin nümayəndələrinin körpüsü olmalıdır.

Əsl ağsaqqal ictimaiyyətin nümayəndəsi kimi dövlətimizin bütövlüyü, millətimizin milli-mənəvi dəyərlərinin qorunması, xalqımızın rifah halının yaxşılaşdırılması istiqamətində fəaliyyət göstərməlidir. Əsl ağsaqqal həm dövləti, həm xalqı düşünməli, dövlət-xalq münasibətlərində ədalətli mövqe tutmalıdır.

Əliheydər Əsədovu xalqın gözündə ucaldan hətta vəzifədə işlədiyi müddətdə onun xalqa daha yaxın olmasıdırsa, dövlət tərəfindən dəstəklənən xidməti isə onun dövlətçiliyə sadiq olmasıdır".

Müəllifin "ağsaqqal necə olmalıdır?" sualına özünün verdiyi tərif bütün ağsaqqalların ümumiləşdirilmiş obrazında əks olunmalıdır ki, bütün bu keyfiyyətlər məhz Əliheydər Əsədovda cəmləşib.

Ədalət Salman

*Baş redaktor*
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*“Azərbaycan Veteranı” qəzeti.*
***VÖEN:** 1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu:** 012 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə “Azərbaycan Veteranı” qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və “Veteran Nəşriyyatı” mətbəəsində nəşr olunur.*

*Qiyməti 60 qəpik*

*Tiraj: 1200*